1_Layout 1 30.08.2018 12:56 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 17 (533)

31 avqust 2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEVİN ŞAMAXI VƏ İSMAYILLI RAYONLARINA SƏFƏRİ

***Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Lider Heydər Əliyevin Şamaxı rayonunda ucaldılan abidəsini ziyarət edib.***

***AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı xalqımızın Milli Lideri Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoydu.***

***Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev son illər rayonda görülən işlər, həyata keçirilən layihələr barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, rayonun sosial-iqtisadi göstəriciləri xeyli yaxşılaşıb, çoxlu sosial infrastruktur obyektləri tikilib, istehsal müəssisələri yaradılıb.***

***Məlumat verildi ki, Ulu Öndər Heydər Əliyevin abidəsinin yerləşdiyi parkda son vaxtlar yenidənqurma və abadlıq işləri aparılıb, burada əhalinin istirahəti üçün hər cür şərait yaradılıb, yaşıllıq zolağı genişləndirilib.***



### Prezident İlham Əliyev İsmayıllıda “Buta Qrup” MMC tərəfindən yaradılan aqroparkın açılışında iştirak edib

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsmayıllı rayonunda “Buta Qrup” MMC tərəfindən yaradılan aqroparkın açılışında iştirak edib.

İqtisadiyyat naziri Şahin Mustafayev və sahibkar Bəşir Quliyev aqroparkda görülən işlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdilər.

Prezident İlham Əliyev müəssisəni işə saldı.

Prezident İlham Əliyevə aqroparkda kartof tədarükü və çeşidləmə prosesi, kompleksin elektron idarəetmə sistemi barədə məlumat verildi.

Qeyd edək ki, respublika üzrə ötən il 2016-cı illə müqayisədə kartof istehsalı 1,3 faiz artaraq 913,9 min ton, ixracı 51 faiz artaraq 57,7 min ton, idxalı isə 11,7 faiz azalaraq 168,8 min ton təşkil edib. Gələcəkdə aqroparkda məhsul istehsalının 3 dəfə artırılması, soyuducu anbar kompleksinin 15 min tona çatdırılması və bitki yağları istehsalı sahəsinin yaradılması nəzərdə tutulur. Layihənin icrası nəticəsində 24 nəfər işlə təmin olunub.

Hazırda ölkənin 30 rayonu üzrə 192,2 min hektar ərazidə dəyəri 1,4 milyard manatdan çox olan 45 aqroparkın yaradılması üzrə işlər sürətlə davam etdirilir. Bu il istifadəyə verilən aqroparkların sayının 14-ə çatdırılması planlaşdırılır.

### Şamaxı rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən Dəmirçi Arxeologiya Muzeyinin açılışı olub

Avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan Dəmirçi Arxeologiya Muzeyinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım muzeyin rəmzi açılışını bildirən lenti kəsdilər.

Məlumat verildi ki, Şamaxı rayonunun ən qədim kəndlərindən olan Dəmirçinin tarixi XV əsrə gedib çıxır. İsmayıllı rayonunun Əhən kəndindən gələn dəmirçi ailələri mövsümi işlə əlaqədar burada müvəqqəti, sonralar isə daimi məskən salıblar. Sakinlərin məşğuliyyəti ilə əlaqədar kəndin də adı dəyişib və Dəmirçi olub. Dəniz səviyyəsindən 1500 metr hündürlükdə yerləşən bu kəndin iqlimi mülayimdir, yayı sərin keçir. Kəndin mərkəzi hissəsində turizm infrastrukturu, o cümlədən dəmirçi və misgərlik emalatxanası, kafe, çayxana, təndir, “Azərxalça” ASC-nin guşəsi, suvenir mağazası və “ABAD” dükanları, avtomobil dayanacağı yaradılıb, “Qala” və bulaq kompleksi inşa edilib. Dövlətimizin başçısının göstərişi ilə ölkəmizin ən qədim dini məbədlərindən olan kənd məscidi əsaslı şəkildə yenidən qurulub. Xatırladaq ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ötən ilin oktyabrında Dəmirçi kəndinə səfərləri çərçivəsində kənd məscidinin yenidənqurmadan sonrakı vəziyyəti və burada yaradılan turizm infrastrukturu ilə tanış olublar.

### Prezident İlham Əliyev yeni salınan Dəmirçi-Lahıc avtomobil yolunun açılışında iştirak edib

Avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni salınan Dəmirçi-Lahıc avtomobil yolunun açılışında iştirak ediblər.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına və xanımına yolun göstəriciləri barədə məlumat verdi.

Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Qeyd edək ki, Dəmirçi-Lahıc avtomobil yolunun tikintisi sakinlərin rahat gediş-gəlişini təmin etmək, yük və sərnişin daşınmasını asanlaşdırmaqla yanaşı, turistlərin hər iki rayonun turizm bölgələrinə daha qısa və abad yolla getməsinə imkan yaradacaq.

### İsmayıllı rayonunun Lahıc qəsəbəsində yeni inşa olunan məktəb binası istifadəyə verilib

Avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllı rayonunun Lahıc qəsəbəsində yeni inşa olunan tam orta məktəb binasının açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım məktəbin rəmzi açılışını bildirən lenti kəsdilər.

Təhsil naziri Ceyhun Bayramov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verdi ki, Lahıc qəsəbə tam orta məktəbi üçün bina 1928-ci ildə inşa edilmişdi. Məktəb 130 şagird üçün nəzərdə tutulmasına baxmayaraq, burada 232 şagird təhsil alırdı. Binanın mövcud vəziyyəti müasir dövrün tələblərinə uyğun deyildi, eyni zamanda, qəsəbə əhalisinin sayının artması və ətraf kəndlərdə tam orta məktəbin olmaması bu təhsil müəssisəsində şagird sıxlığı yaratmışdı. Dövlətimizin başçısının ötən il imzaladığı Sərəncama əsasən, Lahıcda 400 şagird yerlik yeni ümumtəhsil məktəbinin tikintisi məqsədilə Prezidentin ehtiyat fondundan Təhsil Nazirliyinə vəsait ayrıldı. Üçmərtəbəli binada tikinti işləri yüksək səviyyədə və keyfiyyətlə yerinə yetirilib. Müxtəlif fənn kabinetləri və laboratoriyalarının yaradıldığı məktəbdə bütün sinif otaqları əyani vəsaitlərlə təchiz olunub. Burada idman zalı və 175 yerlik akt zalı da yaradılıb. Videomüşahidə sisteminin quraşdırıldığı məktəb mərkəzləşdirilmiş istilik sistemi ilə təchiz edilib.



### Prezident İlham Əliyev Lahıc qəsəbəsinə təbii qazın verilməsi mərasimində iştirak edib

Avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllı rayonunun Lahıc qəsəbəsinə təbii qazın verilməsi mərasimində iştirak ediblər.

Dövlətimizin başçısı və xanımı əvvəlcə Lahıc qəsəbəsinin sakinləri ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Lahıc qəsəbəsinə təbii qazın verilməsinin rəmzi olan məşəli alovlandırdılar.

Daha sonra dövlətimizin başçısı və birinci xanım Lahıc icma evində yaradılan şəraitlə tanış oldular.

Lahıc qəsəbəsini gəzən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva buradakı sənətkarlıq emalatxanalarında oldular, sakinlərlə görüşüb söhbət etdilər, xatirə şəkilləri çəkdirdilər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qəsəbə sakini misgər Nəzər Əliyevin evində oldular.

Misgər Nəzər Əliyevin ailə üzvləri dövlətimizin başçısı və birinci xanım ilə xatirə şəkli çəkdirdilər.

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı Safari Parkında olublar

Avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı Safari Parkında olublar.

“Azər Ekov” MMC-nin direktoru Tofiq Həsənov park haqqında məlumat verdi. Bildirildi ki, “Azərbaycanda ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”ndəki tapşırıqlara uyğun olaraq, vəhşi heyvanlar üçün ekoloji qoruğun yaradılması məqsədilə Şamaxı rayonunda Pirqulu adlanan dağmeşə massivində 620 hektar ərazinin hüdudları içərisində 480 hektarlıq sahə beynəlxalq standartlara uyğun formada çəpərlənib. İstifadəyə verildiyi vaxt parkda 790 baş heyvan - nəcib maral, lan və muflon kimi genetik qiymətli heyvanlar var idi. Görülən seleksiya və baytarlıq tədbirləri nəticəsində bu heyvanların sayı hazırda 1000-i ötüb.

Qeyd edək ki, Şamaxı Safari Parkı 2017-ci il oktyabrın 2-də yaradılıb. Həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva parkda yaradılan şəraitlə yaxından tanış olublar.

## DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Daxili İşlər Nazirliyində “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə Əsanamə”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 23 oktyabr 2013-cü il tarixli Fərmanından və “Azərbaycan Respublikası vətəndaşının yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 29 iyun 2018-ci il tarixli Qanunundan irəli gələn vəzifələrin icra vəziyyətinə həsr olunmuş birgə müşavirə keçirilib.

Müşavirədə Daxili İşlər Naziri, general-polkovnik Ramil Usubov və Azərbaycan Respublikasının İqtisadiyyat Naziri Şahin Mustafayev iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Daxili İşlər Naziri qeyd olunan normativ-hüquqi aktların icrası ilə əlaqədar cari il sentyabr ayının 1-dən yeni nəsil elektron şəxsiyyət vəsiqələrinin tətbiqinə başlanılacağını diqqətə çatdırıb, Daxili İşlər və İqtisadiyyat nazirliklərinin müvafiq strukturlarının və tərəfdaş “İdrak Texnoji Transfer” şirkətinin bütün ölkə ərazisində göstərilən tarixdən yeni sənədin verilməsi istiqamətində hazırlıq, texniki işləri uğurla başa çatdırdığını bildirib.

Respublikanın İqtisadiyyat Naziri Şahin Mustafayev həmkarının fikirlərini bölüşərək yeni nəsil şəxsiyyət vəsiqələrin tətbiqinə hazırlıq mərhələsində prosesə cəlb olunmuş bütün iştirakçıların birgə səmərəli əməkdaşlığını yüksək qiymətləndirib. O, qeyd olunan məsələlərin hər iki dövlət orqanının rəhbərliyi səviyyəsində dəfələrlə müzakirə edildiyini, qarşıya çıxan bütün problemlərin uğurla həllini tapdığını xatırladıb, bu işdə əməyi keçən bütün struktur qurumlara və şəxslərə təşəkkürünü bildirib.

Sonra Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin rəisi vəzifəsini müvəqqəti icra edən polis polkovniki Elçin Məmmədov, İqtisadiyyat Nazirliyinin Hüquq şöbəsinin müdiri Tural İsgəndərov və “İdrak Texnoji Transfer” şirkətinin məsul əməkdaşı Cavanşir Hüseynov yeni nəsil şəxsiyyət vəsiqələrinin tətbiqi istiqamətində görülən hazırlıq işləri barədə müşavirə iştirakçılarına ətraflı məlumat veriblər.

Qeyd olunub ki, yeni nəsil şəxsiyyət vəsiqələrin verilməsi məqsədilə respublikanın Ədliyyə, Səhiyyə nazirliklərinin, Dövlət Miqrasiya, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət xidmətlərinin, Dövlət Əmlak Məsələləri Komitəsinin informasiya resurslarından istifadə edilməklə zəruri məlumat mübadiləsinin aparılması, həmçinin, vəsiqə sahibinin gücləndirilmiş elektron imzasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Sertifikat Xidmətləri Mərkəzindən alınması üçün qarşılıqlı əlaqənin yaradılması təmin olunub. Bundan əlavə, yeni nəsil şəxsiyyət vəsiqələrin verilməsi məqsədilə zəruri avadanlıqlar ərazi polis orqanlarının qeydiyyat və şəxsiyyət vəsiqəsi qurumlarında və “ASAN xidmət” mərkəzlərində quraşdırılıb, texniki parametrlərinin və iş göstəricilərinin yoxlanılması məqsədilə onlara sınaq baxışları keçirilib, yeni texnika ilə işləyəcək əməkdaşlar üçün müvafiq treninqlər keçirilib.

Hər iki Nazir görülən işlərin Azərbaycan Respublikası Prezidentinin daim diqqət və nəzarətində olduğunu, həyata keçirilən tədbirlər barədə mütəmadi olaraq dövlət başçısına məruzə edildiyini vurğulayıblar, rəhbərlik etdikləri nazirliklərin aidiyyəti qurumlarının cari ilin sentyabrın 1-dən yeni nəsil şəxsiyyət vəsiqələrinin verilməsinə tam hazır olduğunu diqqətə çatdırıblar.

## DAXİLİ QOŞUNLARIN KOMANDANI VETERANI 60 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏBRİK EDİB

***Avqustun 28-də Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunların veteranı, ehtiyatda olan polkovnik Bəxtiyar Abdullayevi 60 illik yubileyi münasibətilə təbrik edib. Yubilyarı Daxili Qoşunların Baş İdarəsində qəbul edən general-leytenant Ş.Məmmədov onun şərəfli hərbi xidmət yolu keçdiyini, qoşunların formalaşması və inkişafında təqdirəlayiq əməyinin olduğunu vurğulayıb. Bildirilib ki, B.Abdullayev respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak edərək ağır yaralanıb. Dəyanətli komandir və vətənpərvər zabit kimi müharibə sınaqlarından alnıaçıq çıxaraq, döyüşən şəxsi heyətə nümunə olub.***



Qeyd olunub ki, B.Abdullayev ictimai təhlükəsizliyin qorunması yönündə üzərinə düşən xidməti tapşırıqların yerinə yetirilməsində də əzmkarlıq göstərib. O, Daxili Qoşunların Baş İdarəsi və hərbi hissələrində məsul vəzifələrə təyin olunaraq, Komandanlıq tərəfindən ona göstərilən etimadı layiqli xidmətilə doğruldub. Təcrübəli və səriştəli zabit olaraq qoşunların şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə nəzərəçarpan töhfələr verib.

Daxili Qoşunların Komandanı B.Abdullayevin hərbi xidmət müddətində bir çox mükafatlara layiq görüldüyünü xatırladaraq, bunun veteran zabitə Daxili İşlər Nazirinin və Daxili Qoşunların Komandanlığının diqqət və qayğısının təzahürü olduğunu nəzərə çatdırıb.

General-leytenant Ş.Məmmədov veteranların qoşunların şəxsi heyətilə təmaslarının qorunub saxlanmasının vacibliyini, onların təcrübəsindən təlim-tərbiyə prosesində məqsədyönlü istifadə olunmasının zəruriliyini, veteran həmrəyliyinin möhkəmləndirilməsinin əhəmiyyətini xüsusi qeyd edib.

O, B.Abdullayevi 60 illik yubileyi münasibətilə təbrik edərək, dövlətçiliyimizə sədaqətinə, Daxili Qoşunların veteranı adını uca tutmasına görə minnətdarlığını bildirib, hörmətli veterana möhkəm cansağlığı, ailə səadəti və işlərində uğurlar arzulayıb.

Görüşdə veterana hədiyyə təqdim olunaraq, xatirə şəkli çəkdirilib.

Daxili Qoşunların Veteranlar Şurasının sədri, ehtiyatda olan polkovnik Çingiz Daşdəmirov da görüşdə iştirak edib.

**Mətbuat xidməti**

2_Layout 1 30.08.2018 12:59 Page 1



# KOMENDANT BÖLÜYÜNÜN ŞƏXSİ HEYƏTİ YÜKSƏK FİZİKİ GÖSTƏRİCİLƏRƏ VƏ ATƏŞ HAZIRLIĞINA MALİKDİR

Qarşıya qoyulmuş bütün növ tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi hissədəki bölmələrin gündəlik fəaliyyətinin nəticəsidir desək yanılmarıq. Bu baxımdan, qoşunların 17074 saylı hərbi hissəsinin komendant bölüyü də üzərinə düşən vəzifələri uğurla həyata keçirir.






Hərbi şəhərciyin, obyektlərin, anbarların etibarlı mühafizəsini təşkil edən komendant bölüyünün hərbi qulluqçuları yüksək fiziki göstəricilərə və atəş hazırlığına malikdirlər. Bu sözləri bölük komandiri baş leytenant Röyal Əzizov onunla söhbət əsnasında bildirdi. O, əldə olunmuş nəticələrin qorunub saxlanılması məqsədilə mütəmadi olaraq şəxsi heyətin həm nəzəri, həm də praktiki məşğələlərə cəlb olunduğunu diqqətə çatdırdı. Əlavə etdi ki, keçirilən təlimlər hərbi qulluqçularda əzmkarlıq, dözümlülük, ayıq-sayıqlıq kimi amillərin daha da təkmilləşdirilməsində mühüm rola malikdir.

Bölük komandiri ciddi nəzarətdə saxlanılan daha bir neçə vacib məqamın olduğunu söylədi. Bunlar posta çıxan hərbi qulluqçuların mənəvi-psixoloji durumları, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi əməl edilməsi, saatdarın təyin olunmuş postda daima ayıq-sayıq və iti gözlü olması, eyni zamanda şəxsi heyətin asudə vaxtının səmərəli təşkilidir.

Xidmətə cəlb olunan hərbi qulluqçularda sadalanan keyfiyyətləri qənaətbəxş hesab edən bölük komandiri, şəxsi heyətin qarşıya qoyulan tələblərə tam cavab verdiyini vurğuladı. O, qazanılan nailiyyətləri şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksək olması ilə əlaqələndirdi və bu işdə bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Əli Əliyevin əməyini müsbət qiymətləndirdi.

Üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələn qarovul rəisi baş leytenant Namiq Mancanovun, qarovul rəisinin köməkçisi çavuş Taleh Həmidovun, əsgərlərdən Emin Hacıyevin, Samir Dəmirovun, Müseyib Sərxanlının, Rəhman Hacıyevin və Orxan Quliyevin adlarını çəkdi.

**kapitan T.Əlizadə**

# HƏRBİ HİSSƏNİN DÖYÜŞ HAZIRLIĞININ YÜKSƏK OLMASINI ŞƏRTLƏNDİRƏN GÖSTƏRİCİLƏRDƏN BİRİ NÖVBƏTÇİ HEYƏTİN MÜTƏŞƏKKİL FƏALİYYƏTİDİR

Daxili Qoşunların gündəlik xidməti-döyüş fəaliyyətinin yerinə yetirilməsində əsas sahələrdən biri kimi növbətçi heyəti xüsusi yer tutur. Hərbi hissələrin növbətçi heyəti günün nizam qaydalarına bölmələr tərəfindən əməl olunmasına, nəzərdə tutulan tədbirlərin vaxtlı-vaxtında həyata keçirilməsinə nəzarət edirlər.



Hərbi hissələrin növbətçi heyəti hərbi hissə növbətçisi və hissə növbətçisinin köməkçisi olmaqla iki nəfərdən ibarət olur. Hissə növbətçisi bölük komandirlərindən, hərbi hissənin qərargah və xidmət zabitlərindən təyin edilir. O, hərbi hissə komandirinə tabedir və hərbi hissədə daxili qayda-qanunun saxlanılmasına, sutkalıq naryadın xidmət aparmasına cavabdehdir. Hərbi hissə növbətçisi xidmətini Daxili Xidmət Nizamnaməsinin müvafiq maddələrinin tələbləri əsasında qurur.

Sutka ərzində bir dəfədən az olmayaraq gündüz, eləcə də gecə qarovulun və sutkalıq naryadın xidmət aparmasını, bölmələrdə daxili qaydaya riayət olunmasını şəxsən yoxlayır. O, mühafizə olunan obyektlərin vəziyyətinə, hasarların, işığın, rabitə və yanğınsöndürmə, habelə siqnalizasiya vasitələrinin sazlığına, saatdarların postlarda, parkda, silah, döyüş sursatı, yanacaq anbarları yanında xidmət aparmalarına, habelə bölmələrdə silahların, xüsusi vasitələrin qorunmasına diqqət yetirir. Yoxlamanın nəticələrini post cədvəlinə qeyd edir. Sutkalıq naryadın xidmət aparmasını yoxlamağa gedərkən köməkçisini öz əvəzinə qoyur. Səhər gimnastikası üçün geyim formasını müəyyənləşdirir, elan edir və yerinə yetirilməsini diqqətdə saxlayır. Hərbi şəhərciyin hüdudlarından kənarda təlimlərdə olan bölmələrin, zirehli texnikanın və hərbi avtomobillərin geriyə qayıtmasına nəzarət edir. Hərbi hissə növbətçisi, həmçinin, gün ərzində hərbi hissədə baş vermiş bütün hadisələr barədə Daxili Qoşunların Baş İdarəsinin əməliyyat növbətçisinə müəyyən olunmuş zamanda müvafiq təlimata əsasən məlumat verir.

Hərbi hissə növbətçisi və hissə növbətçisinin köməkçisi hərbi hissədə "döyüş həyəcanı" ilə qaldırma və toplanış elan edildikdə isə bölmələrə "həyəcan" siqnalını çatdırır, siqnalın bölmələr tərəfindən qəbul olunduğunu dəqiqləşdirir. "Həyəcan" siqnalının elan edilməsi barədə hərbi hissə komandirini, onun müavinlərini, eləcə də hissənin zabit, gizir və müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçularını müəyyən olunmuş qaydada xəbərdar edir. Hərbi şəhərcikdən kənarda məşğələ və təlimlərdə olan bölmələri hərbi hissəyə çağırır, onların toplanış məntəqəsinə mütəşəkkil çıxmalarına nəzarət edir. "Həyəcan" siqnalı ilə hərbi hissəyə daxil olan hərbi qulluqçuların qeydiyyatını aparır, zərurət olduqda şəxsi heyətin müvafiq qaydada silahlandırılmasını təmin edir.

Bir sözlə, hərbi hissənin döyüş hazırlığının yüksək olmasını şərtləndirən göstəricilərdən biri növbətçi heyətin mütəşəkkil fəaliyyətidir.

**kapitan T.Əlizadə**

# DAXİLİ QOŞUNLARIN FƏDAKAR VETERANI

***Daxili Qoşunların veteranı, ehtiyatda olan polkovnik-leytenant Murad Mürsəlovun sentyabrın 1-də 70 yaşı tamam olur. Onun bu günədək keçdiyi maraqlı və mənalı həyat yolu gənc nəsil üçün dəyərli örnəkdir. Murad müəllim həmişə milli təəssübkeşliyi, vətənpərvərlik əqidəsi və dürüst vətəndaşlıq mövqeyi ilə onu tanıyanların dərin hörmətini qazanıb.***



1948-ci il sentyabrın 1-də İsmayıllı rayonunun Həftəsov kəndində dünyaya göz açan M.Mürsəlov el-obasına sədaqətini, valideynlərinə, müəllimlərinə ehtiramını həmişə uca tutub. O, hərbi xidmətə çağırılanadək doğma kəndində orta məktəbi, sonra Bakıda axşam məktəbi və texniki-peşə məktəbini bitirib. 1965-ci ildə Türkmənistanın o vaxtkı Krasnovodsk şəhərinə ezam edilərək burada neft sənayesi üzrə ixtisaslaşmış texnikumda təhsil alıb. 1967-ci ildə Krasnovodsk şəhərindən hərbi xidmətə yola düşüb. Hərbi xidməti Rusiya Federasiyası Ural vilayətinin Kurqan şəhərində keçib. Burada artilleriya təyinatlı hərbi hissədə hərbi xidməti "baş çavuş" hərbi rütbəsində başa vurub. Bakıya qayıtdıqdan sonra peşə seçimi ilə bağlı qəti qərarını verib. Belə ki, o, gələcəyini hərbçi olmaqda görürdü. Özünün dediyinə görə, hərbi xidmətdəki ciddilik, əzmkarlıq, qayda-qanun onun bu qərarı qəbul etməsinə təsir göstərib. Beləliklə, SSRİ Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Bakıdakı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Onun hərbçi karyerası yüksələn xətt üzrə inkişaf edib. Bölüyün başçavuşu, hərbi hissənin geyim xidməti rəisinin köməkçisi, taqım komandiri vəzifələrində işləyib.

1976-cı ildə Moskva Ümumittifaq Qiyabi Hüquqşünaslar İnstitutuna təhsil almağa göndərilib. 1982-ci ildə isə o, SSRİ DİN-in Daxili Qoşunlarının Leninqrad (hazırda Sankt-Peterburq) Ali Hərbi Siyasi Məktəbinə müsabiqədən uğurla keçərək, ekstern kurslarını əla qiymətlərlə başa vurub.

M.Mürsəlovun hərbi xidmətinin bir hissəsi də Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının sıralarında keçib. Taqım komandiri vəzifəsindən Daxili Qoşunların Baş İdarəsinin qərargahında əməliyyat və döyüş hazırlığı İdarəsi rəisinin müavini vəzifəsinədək yüksəlib. Daxili Qoşunların formalaşmasında M.Mürsəlovun da bir zabit kimi təqdirəlayiq xidmətləri var.

O, müharibə sınağından keçmiş zabitdir. Qarabağda ölümlü-itimli günlərin sarsıntıları yaddaşında silinməz iz buraxıb.

Həmçinin, M.Mürsəlov respublikamızın ərazisində ictimai təhlükəsizliyin qorunması, dövlətçiliyimizə qarşı təxribatların qarşısının alınması yönündə qarşıya qoyulmuş xidməti tapşırıqların yerinə yetirilməsində fərqlənib.

Onu da xüsusi vurğulamaq lazımdır ki, M.Mürsəlov peşəkar zabit kimi şəxsi heyətin təlim-tərbiyəsi işində öz bilik və təcrübəsini əsirgəməyib.

Təsadüfi deyil ki, o, "Qüsursuz xidmətə görə" medalının hər üç dərəcəsinə layiq görülüb. Bundan əlavə, hərbi xidmət sahəsinə aid bir sıra digər medallar və döş nişanları ilə təltif edilib. Murad müəllim "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin veteranı" fəxri adını daşıyır.

Ehtiyata buraxıldıqdan sonra M.Mürsəlov respublika veteran hərəkatına qoşulub. Bu vacib ictimai missiyaya həmişə öz töhfəsini verməyə çalışıb. M.Mürsəlov Daxili Qoşunların Veteranlar Şurasının ilk sədri olub. 2008-2017-ci illərdə bu ictimai təşkilata rəhbərlik edib. Bu gün də onun tərkibində fəaliyyət göstərir. Veteranlarımızın təşkilatlanmasında onun böyük əməyi var. Murad müəllim gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi yönündə əzmlə çalışır.

Zəngin xidmət təcrübəsi M.Mürsəlovun Respublika Baş Prokurorluğunun atıcılıq tirinin rəisi kimi fəaliyyətində də gərəkli mənbədir.

M.Mürsəlov yaradıcı ruha və parlaq istedada malik insandır. "Ərənlər yurdu" kitabının müəllifidir. Kitabda onun müxtəlif illərdə qələmə aldığı şeirlər, habelə silahdaşlarının ürək sözləri işıq üzü görüb.

Hörmətli veteranımızın hərbi xidmətdə yolunu qızı gizir Günay Sadıqova, qardaşı qızı gizir Fidan Poladova və qardaşı oğlu kapitan Rasim Mürsəlov davam etdirirlər. Onlar Daxili Qoşunların hərbi qulluqçularıdır.

Murad müəllimi yubileyi münasibətilə təbrik edir, xidməti və ictimai fəaliyyətində uğurlarının davamlı olmasını arzulayırıq.

**Yalçın Abbasov**

# HƏRBİ XİDMƏTDƏ UĞURLARIN TƏMƏLİ NİZAM-İNTİZAMDAN BAŞLAYIR

***Redaksiyadan: Hərbi hissələrimizdə fəaliyyət göstərən ştatdankənar müxbir postlarımızın hazırladıqları məqalələrin dərcini davam etdiririk. 25033 saylı hərbi hissənin ştatdankənar müxbir postu öz fəallığı ilə fərqlənir. Bu dəfə də redaksiyaya göndərilən məqalələrdə hərbi xidmətdə uğurlar əldə edən hərbi qulluqçular barədə dolğun məlumatlar öz əksini tapıb.***

25033 saylı hərbi hissənin hərbi qulluqçusu **baş çavuş Şəmşir Qasımlı** funksional vəzifələrini və qarşıya qoyulan tapşırıqları məsuliyyətlə yerinə yetirir. O, 1999-cu il sentyabrın 1-də Lənkəran şəhərində anadan olub. 2011-ci ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların 12318 və 67987 saylı hərbi hissələrində hərbi xidmət keçib. 67987 saylı hərbi hissənin patrul bölüyündə atıcı və 2012-ci ilin may ayında "kiçik çavuş" hərbi rütbəsi verilməklə komendant bölüyündə manqa komandiri vəzifələrində xidmət edib. 2013-cü ilin aprel ayında "çavuş" hərbi rütbəsində ehtiyata buraxılıb. Ancaq hərbi xidmətə marağı və rəğbəti onun Daxili Qoşunların sıralarına qayıtmasına səbəb olub. 2015-ci ilin dekabr ayından müddətdən artıq həqiqi hərbi xidmətə keçirilərək 25033 saylı hərbi hissənin komendant bölüyündə taqım komandirinin müavini vəzifəsinə təyin edilib.






Baş çavuş Ş.Qasımlı döyüş xidmətində qarovul rəisi kimi nümunəvi cəhətdən fərqlənir. Bu xidmətin xüsusiyyətlərinə dərindən bələddir. O, taqımın şəxsi heyətinin qarovul xidmətinə hazırlanmasına da yüksək cavabdehliklə yanaşır. Bununla yanaşı, taqımda döyüş hazırlığının yüksəldilməsi, nizam-intizamın möhkəmləndirilməsində öz əməyini əsirgəmir. Şəxsi heyətə qayğı göstərir, heç vaxt onların müraciətlərinə laqeyd qalmır.

Bu il hərbi hissədə keçirilən ümumi inspeksiya yoxlaması zamanı baş çavuş Ş.Qasımlı təlim fənlərindən "əla" qiymət alıb. Baş çavuş Ş.Qasımlı ötən hərbi xidmət müddətində dəfələrlə mükafatlandırılıb.

Komendant bölüyündə manqa komandiri **kiçik çavuş Kamil Kərimov** nizam-intizamlı, çalışqan, özünə qarşı tələbkar hərbi qulluqçudur. O, 1995-ci il iyulun 2-də Qazax rayonunun Ürkməzli kəndində anadan olub. 2013-2017-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında ali təhsil alıb. Ancaq ali təhsilini bitirməyib. 2017-ci ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 25031 saylı hərbi hissədə hərbi xidmətə başlayıb. Həmin ilin avqust ayından 25033 saylı hərbi hissədə hərbi xidmətini davam etdirir. Komendant bölüyündə atıcı vəzifəsindən manqa komandiri vəzifəsinə irəli çəkilib. 2018-ci il mayın 8-də ona "kiçik çavuş" hərbi rütbəsi verilib. Kiçik komandir kimi göstərilən etimadı doğruldur. Manqa komandiri olaraq tabeliyindəki şəxsi heyətə görə məsuliyyətini düzgün dərk edir, onların xidmətini, davranışını, təlimini və məişət təminatını ciddi nəzarətdə saxlayır.

Kiçik çavuş K.Kərimov hərbi hissədə qarovul rəisinin köməkçisi və bölük növbətçisi kimi xidmətə cəlb olunur. Yüksək icraçılıq və ayıq-sayıqlıq tələb edən sutkalıq xidmət zamanı üzərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlir. O, hərbi hissənin çavuşlar şurasının üzvüdür. Hərbi hissədə keçirilən inspeksiya yoxlaması zamanı o, yüksək nəticə əldə edərək mükafatlandırılıb.

25033 saylı hərbi hissədə nizam-intizamlı, xidmətdə və təlimdə əzmkar hərbi qulluqçulardan biri də **baş əsgər Tərlan Əliyevdir**. O, 1999-cu il iyunun 9-da Qobustan rayonunun Nərimankənd yaşayış məntəqəsində anadan olub. 2017-ci ilin iyul ayında Daxili Qoşunların sıralarına həqiqi hərbi xidmətə çağırılıb. 25031 saylı hərbi hissədə hərbi xidmətə başlayıb. 2017-ci ilin avqust ayından 25033 saylı hərbi hissədə hərbi xidmətini davam etdirir. Tərlan əvvəlcə minaatan batareyada xidmətə cəlb olunub. Sonra xüsusi vasitələrin tətbiqi dəstəsində atıcı vəzifəsinə keçirilib. Hazırda dəstədə baş atıcıdır. Hərbi nizamnamə ilə müəyyən olunmuş əsgərin vəzifələrini, ona təhkim edilən silahın taktiki-texniki xüsusiyyətlərini mükəmməl bilir. Məşğələlərdə fəaldır, praktiki təlimlərdə yaxşı nəticələr göstərir. Bölükdə gün naryadına təyin olunarkən üzərinə düşən tapşırıqları məsuliyyətlə yerinə yetirir. Müsbət fərdi keyfiyyətləri ilə əsgər yoldaşları arasında hörmət qazanıb. Bölmənin hərbi kollektiv şurasının üzvüdür.

Vətənpərvər əqidəli baş əsgər T.Əliyev şəhid hərbi qulluqçularımızın döyüş yolu barədə "Əsgər" qəzetində dərc olunan məqalələri maraqla oxuyur. Bu günədək hərbi xidməti müddətində komandirlər tərəfindən bir neçə dəfə mükafatlandırılıb. O, Daxili Qoşunlarda hərbi xidməti ilə fəxr edir.

**25033 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

3_Layout 1 30.08.2018 13:01 Page 1



# QURBAN BAYRAMI DAXİLİ QOŞUNLARIN HƏRBİ HİSSƏLƏRİNDƏ DƏ QEYD OLUNUB

***Qurban bayramı İslam dünyasının ən müqəddəs bayramlarından biridir. Bütün müsəlman aləmində hər il hicri təqvimi ilə zilhiccə ayının 10-cu günündən başlayır və üç gün davam edir.***

***Qurban Allah yolunda insanın ən çox istədiyi arzusundan, istəyindən, dəyərli nemətindən keçə bilməsi, onu qurban verməyə hazır olmasının simvoludur. Bayramın əsas mahiyyəti Allah yolunda kəsilmiş qurbanlıq heyvanın ətini imkansız insanlarla bölüşdürmək, onları sevindirməkdir. Göründüyü kimi, ayinin əsasında xeyirxahlıq, paklıq və Allaha inam durur.***

***Dünya müsəlmanları tərəfindən yüksək coşqu ilə qarşılanan Qurban bayramı Azərbaycanda da hər il dövlət səviyyəsində qeyd edilir.***

***Dövlətimizdə dini ənənələrimizə və dəyərlərimizə göstərilən ehtiram, inanclı vətəndaşlarımızın ibadəti üçün yaradılan hərtərəfli şərait, dini abidələrimizin bərpası yönündə görülən işlər, yeni məscidlərin tikilib istifadəyə verilməsi, dini təhsil ocaqlarının yaradılması, dini maarifləndirmə məsələsinin xüsusi diqqət mərkəzində saxlanılması xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanır.***

Ölkəmiz öz xarici siyasətində də islam həmrəyliyinin möhkəmləndirilməsinə layiqli töhfələr verir. Təsadüfi deyil ki, respublikamızın ayrı-ayrı şəhərləri islam mədəniyyətinin paytaxtı seçilir. Azərbaycan IV İslam Həmrəyliyi Oyunlarına da evsahibliyi edib. Azərbaycan islam mədəni irsinin dünyada təbliğ olunması baxımından da əvəzsiz işlər görür, beynəlxalq miqyasda islamafobiya hallarına qarşı mübarizə aparılması səylərinə dəstək verir. Bütün bunlar ölkəmizin islam dünyasında nüfuzunun daha da artmasına möhkəm zəmin yaradır.

Respublikamızda dini bayramların keçirilməsində də iqtidar-xalq birliyi, ictimai həmrəylik, tolerant yanaşma özünü büruzə verir. Digər dini icmaların nümayəndələri də dini bayramların keçirilməsi mərasimlərinə dəvət olunurlar.

Qurban bayramı zamanı kəsilən qurbanların şəhid və əlil ailələrinə, uşaq evlərinə, məcburi köçkünlərə, qaçqınlara, vətənimizin və dövlətçiliyimizin keşiyində dayanan hərbçilərə paylanması da təşkil olunur.

Dini bayram mərasimlərinin ölkəmizin hərbi qurumlarında keçirilməsi hərbi qulluqçulara nəcib mənəvi keyfiyyətlərin aşılanması baxımından da ciddi rol oynayır.

Hər zaman milli-mənəvi ənənələrə sadiqlik nümayiş etdirən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi hissələrində bu il də müqəddəs bayramımız yüksək səviyyədə keçirilib. Belə ki, Daxili Qoşunlar Komandanının müavini – Şəxsi heyət üzrə İdarə rəisi general-mayor Vidadi Əliyevin müvafiq göstərişinə əsasən, hərbi hissələrdə avqustun 22 və 23-də bayram tədbiri təşkil olunub.

16075 saylı hərbi hissədə də sözügedən tədbir təntənəli şəkildə qeyd edilib. Bayrama həsr olunmuş mərasimdə hərbi hissə komandiri mayor Emil Rüstəmov Qurban bayramının tarixi əhəmiyyəti mövzusunda çıxış edib.

Bütün hərbi qulluqçuları səmimi qəlbdən təbrik edən hərbi hissə komandiri insanları halallığa, paklığa səsləyən bayramın çox maraqlı tarixi və şərtləri olduğunu, qurban sözünün "Allaha yaxınlaşdıran şey" mənasında başa düşüldüyünü deyib. O, bu bayramda hər bir imkanlı müsəlmanın qurban kəsib, kasıbları, yetimləri sevindirməsinin vacibliyini sözlərinə əlavə edib. Mayor E.Rüstəmov sözügedən bayramın əsasən Azərbaycan xalqının Milli Lideri Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi vaxtdan dövlət səviyyəsində qeyd olunduğunu da vurğulayıb. Çıxışının sonunda şəxsi heyətə şərəfli xidmətində uğurlar arzulayaraq, bundan sonra da öz üzərilərində çalışmalarını və rəhbərliyin etimadını hər zaman doğrultmalarını tövsiyə edib.

Daha sonra qurbanlıq heyvanların kəsilməsi mərasimi olub.

Nəzərdə tutulmuş tədbirlər planına əsasən, gün ərzində hərbi hissənin bölmələri arasında Qurban bayramı haqqında disputlar, stolüstü oyunlar, şən estafetlər keçirilib, televiziya vasitəsilə bayram verilişlərinə baxılıb, şəxsi heyətə bayram naharı verilib.

**leytenant N.Ağayeva**

# HƏRBİ HİSSƏLƏRİN YARADILMASININ 26-cı İLDÖNÜMÜ TƏNTƏNƏLİ ŞƏKİLDƏ QEYD OLUNUB

Avqustun 27-də Daxili Qoşunların 25033, 28-də isə 16073 saylı hərbi hissəsinin yaradılmasının 26-cı ildönümü tamam olub. Bu münasibətlə hərbi hissələrdə təntənəli mərasim keçirilib.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov hər iki hərbi hissənin şəxsi heyətinə təbrik məktubu ünvanlayıb.

Təbrikdə yarandıqları gündən regionda ictimai təhlükəsizliyin keşiyində dayanan hərbi hissələrin ötən 26 il ərzində təqdirəlayiq xidmət yolu keçərək, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində nəzərəçarpacaq irəliləyişlər əldə etdiyi, nailiyyətlər qazandığı vurğulanıb.

Qeyd olunub ki, bu müddət ərzində hərbi qulluqçuların peşə hazırlığının artırılması, hərbi intizam və şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində çoxşaxəli işlər görülüb, müxtəlif uğurlara imza atılıb.

Xüsusi olaraq vurğulanıb ki, şəxsi heyətə göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün ciddi nizam-intizamın hökm sürdüyü hərbi hissələrimiz regionda asayişin sadiq keşikçisi olaraq, qarşıya qoyulan hər bir xidməti-döyüş tapşırığını tam və keyfiyyətlə, yüksək səviyyədə yerinə yetirməyə hazırdır.

Təbrikdə, eyni zamanda hərbi hissələrin şəxsi heyətinin Milli Liderimiz, ordumuzun memarı möhtərəm Heydər Əliyevin ideyalarına sadiq qalaraq, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi etimadı doğruldacaqlarına, Daxili Qoşunların qəhrəmanlıq ənənələrini bundan sonra da davam etdirəcəklərinə, müqəddəs Döyüş Bayrağını göz bəbəyi kimi qoruyacaqlarına, ləyaqətli xidmət nümunəsi göstərəcəklərinə əminlik ifadə olunub.

**Mətbuat xidməti**

# AZƏRBAYCAN GƏNCLİYİ HƏRBİ-VƏTƏNPƏRVƏR RUHDA BÖYÜYÜR

***Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Komandanlığı ictimaiyyətlə əlaqələrin qurulmasına çox ciddi diqqət yetirir. Gənc və yeniyetmələrə hərbi-vətənpərvərlik əqidəsi aşılayan layihələri daim dəstəkləyir. Hər il Daxili Qoşunlar tərəfindən şagird və tələbələr üçün hərbi təmayüllü yay istirahət düşərgəsinin fəaliyyəti, dövlət və bir sıra qeyri-hökumət təşkilatları ilə sıx qarşılıqlı əlaqələr buna bariz nümunədir.***

***Görülən işlər ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır və bunu Daxili Qoşunlara ünvanladıqları məktublarda dərin məmnunluq hissi ilə bildirirlər.***

Bu günlərdə Daxili Qoşunların 25031 saylı hərbi hissəsinə məktəblilərdən məktublar daxil olub. Bu məktublardan biri Sabunçu rayonu Bakıxanov qəsəbəsindəki 96 nömrəli tam orta mək-




təbin 4-cü sinif şagirdi Nəzrin Süleymanlı tərəfindən yazılıb. Məktubda sözügedən məktəbin 4-cü sinif şagirdlərinin "Əsgərə məktub" adlı inşa yazmasından bəhs edilir. Bildirilir ki, müəllimələri tərəfindən onlara yuxarıda adı qeyd olunan mövzu ətrafında inşa yazmaları ev tapşırığı kimi verilib. Şagirdlər də çox böyük sevinc və qürur hissi ilə ürəklərindən keçən arzu və diləklərini Azərbaycan əsgərinə ünvanlayıblar.

Səmimiyyət və hörmət hissilə yazılmış məktublardan bir neçəsini sizlərə təqdim edirik.

**96 nömrəli tam orta məktəbin 4-cü sinif şagirdi Tamerlan Zeynallı**

"Salam əziz əsgərlərimiz. Mən sizin hamınızı çox sevirəm. Siz olmasaydınız biz ölərdik. Mənim bu həyatda ən böyük arzum əsgər olmaqdır. Siz necə bizim üçün canınızı verirsiniz, mən də sizin kimi olmaq istəyirəm. Yəni ki, mənim canım olmasın, amma yenə də bütün Azərbaycan xalqı xoşbəxt olsun. Mən bir də istəyirəm ki, məktəbdə dərslərimi yaxşı oxuyum. Allah bütün şəhidlərimizə rəhmət eləsin."

**96 nömrəli tam orta məktəbin 4-cü sinif şagirdi Səkinə Hilalzadə**

"Salam əsgər. Biz sizinlə fəxr edirik. Siz Vətəni layiqincə qoruyursunuz. Biz inanırıq ki, siz tezliklə torpaqlarımızı azad edəcəksiniz. Orada hündür binalar, məktəblər, bağçalar, uşaq əyləncələri tikiləcəkdir. Biz Qarabağda yaşayacaq, oxuyacaq və istirahət edəcəyik. Biz bu qələbəni səbrsizliklə gözləyirik."

**96 nömrəli tam orta məktəbin 4-cü sinif şagirdi Aysu (məktubda soyadı qeyd olunmayıb)**

"Salam əsgər qardaş. Mən Aysu 10 yaşın-


Əsgərə Məktub
Salam Azərbaycan əsgəri!
Mən Musazadə Rafət sizə məktub yazmaq istədim. Ürəyimdə çox sözüm var, sizə demək istədiyim. İlk öncə sizə təşəkkür etmək istəyirəm. Çünki, sizin sayənizdə biz uşaqlar rahat yaşayırıq. Siz qışın soyuğunda, yayın istisində heç nədən qorxmayaraq Vətəninizin keşiyini çəkirsiniz. İnşə Allah mən və yoldaşlarım gün gələr sizin yerinizdə layiqincə durarıq. Allah sizi qorusun!
Vətən sizə əmanət Azərbaycan əsgəri!!!

dayam. Bizə müəllimələmiz belə bir tapşırıq verdi ki, əsgərlərimizə məktub yazaq. Mən burada rahat yatanda sən şirin yuxundan məhrum olursan. Mən burada rahat gəzəndə sən düşmənlə üzbəüz hər an həyatın təhlükədə olursan. Ümid edirəm ki, orda hər bir şey sizin kimi igidlərin sayəsində qaydasındadır. İnşallah, sağ-salamat evinizə çatasınız."

Sevindirici haldır ki, artıq bu gün Azərbaycan gəncliyi hərbi-vətənpərvər ruhda böyüyür, dövlət atributumuz olan ordumuzla fəxr edir və bu istiqamətdə görülən işləri dəstəkləyir.

Məktublardan da göründüyü kimi, əsgərlərə yazılmış sözlər bir daha sübut edir ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır, Azərbaycan ictimaiyyəti öz ordusuna güvənir, onunla qürur duyur.

**P.S. Məlumat üçün bildirək ki, məktubu ünvanlayan Nəzrin Süleymanlı 12576 saylı hərbi hissənin Terapiya şöbəsində işçi, baş ordinator-terapevt Şahin Hüseynovun nəvəsidir. Ş.Hüseynov ehtiyatda olan mayordur.**

**kapitan T.Əlizadə**

## ŞƏHİDLƏRİMİZ

# XALQIMIZI VƏ TORPAĞIMIZI QORUMAQ NAMİNƏ ODLU SƏNGƏRDƏ SİNƏSİNİ SİPƏR ETDİ...

**Çox sınadı bizi zaman,**
**Neçə şəhid getdi qurban.**
**Sinəsilə sipər olan**
**İgid əsgər, möhkəm dayan!**

Hərbi-vətənpərvərlik janrında dəyərli əsərlərin müəllifi Şahin Musaoğlunun sözlərini yazdığı və musiqisini bəstələdiyi "İgid əsgər, möhkəm dayan!" mahnısında döyüş ruhlu bu misralar var. Hər dəfə televiziya və radioda bu mahnı səslənəndə həm Vətən yolunda canını fəda etmiş şəhidlərimizi xatırlayır, həm də bu gün düşmən qarşısındakı səngərlərdə dayanaraq keşik çəkən əsgərlərimizi düşünürük. Azərbaycan əsgəri Qarabağ müharibəsi salnaməsində öz şücaəti ilə şərəfli iz qoyub. Bu gün də dövlətçiliyimiz və ərazi bütövlüyümüz uğrunda hər bir fədakarlığa hazırdır. Əsgər adı mənəvi ucalıq, qürur, ləyaqət və hünər deməkdir. Şəhidlərimiz Vətənin sadiq əsgəri olmağı iftixar bilərək, müharibənin amansız sınaqları qarşısında mətin dayandılar, yenilmədilər.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının şəhid hərbi qulluqçularından biri olan əsgər Hacıyev Zülfüqar Şaban oğlu vətənpərvər və cəsur döyüşçü kimi xatırlanır. O, 1973-cü il avqustun 2-də Oğuz rayonunun Xaçmaz kəndində dünyaya göz açıb. Çoxuşaqlı ailədə böyüyüb boya-başa çatan Zülfüqar sadəliyi, xeyirxahlığı, xoşxasiyyət və qayğıkeş olması ilə onu tanıyanların rəğbətini qazanıb. Zülfüqar həmişə valideynlərinə ehtiramla yanaşıb, onların öyüd-nəsihətlərinə laqeyd qalmayıb. Atası Şaban Hacıyev usta işləyib və Zülfüqar


ŞƏHİD ZÜLFÜQAR HACIYEV

ona kömək edib. Ş.Hacıyev qeyrətli oğul kimi yetişdirdiyi Zülfüqarın yoxluğuna dözməyərək, 1993-cü ilin yanvar ayında dünyasını dəyişib. Şəhidin anası, 76 yaşlı Şadilə Hacıyeva isə Sovet dövründə uzun illər kolxozda işləyib, həyatının böyük bir hissəsini kənd təsərrüfatında çalışıb. O, doğma torpağa bağlılığın, el-oba təəssübkeşliyinin, halal zəhmətin vacibliyini övladlarına da aşılayıb.

Şəhidin qardaşı Eyvazın dediyinə görə, Zülfüqar idmana böyük həvəs və maraq göstərib. Xüsusən də kəndir üzərində hərəkət etməyi məharətlə bacarıb.

O, 1980-1988-ci illərdə kənd orta məktəbində təhsil alıb. 1988-ci ildə Bakı Politexnik Texnikumuna qəbul olunub. 1992-ci ildə texnikumun adı dəyişdirilib və beləliklə, Bakı İnşaat Texnikumunu texnik-inşaatçı ixtisası üzrə bitirib. Orta məktəb və texnikumda oxuduğu illərdə Zülfüqar fəallığı ilə seçilib, müəllimləri tərəfindən müsbət xarakterizə edilib. Onun seçdiyi ixtisas da həyatda qurub-yaratmaq arzu və məramının təzahürü idi.

1992-ci ilin iyun ayında isə Zülfüqar Binəqədi Rayon Hərbi Komissarlığı (hazırda SHXÇDX-nin Binəqədi Rayon İdarəsi) tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. DİN-in Daxili Qoşunlarının sıralarında hərbi xidmətə başlayıb.

Həmin dövrdə artıq müstəqillik qazanmış və dövlət quruculuğu prosesini yaşayan respublikamızda vəziyyət ağır idi. Ermənistanın torpaqlarımıza hərbi təcavüzü davam edirdi. 1992-ci il fevralın 26-da Xocalıda dəhşətli soyqırım törədildi. 1992-ci ilin may ayında isə Şuşa və Laçın işğal olundu.

O vaxt Daxili Qoşunların hərbi hissələrinin formalaşması həyata keçirilirdi. 1992-ci ilin mart ayının 12-dən etibarən isə Daxili Qoşunların şəxsi heyəti Ağdam rayonu ərazisində erməni işğalçılarına qarşı döyüşə başlamışdı.

Əsgər Z.Hacıyev əvvəlcə Daxili Qoşunların 5456 (hazırda 99713), ardınca 3645 (hazırda 25032) saylı hərbi hissələrində hərbi xidmət keçib, əsgər üçün zəruri olan hərbi biliklərə və praktiki keyfiyyətlərə yiyələnib. Bir müddət sonra 3645 saylı hərbi hissədən ön cəbhəyə göndərilib. Ön cəbhəyə göndərilən şəxsi heyət müxtəlif istiqamətlərdəki döyüş mövqelərində yerləşdirilirdi. Daxili Qoşunların ayrı-ayrı hərbi hissələrinin şəxsi heyəti düşmənlə təmas xəttində torpaqlarımızın müdafiəsində dayanırdı. Zülfüqar Tərtər, Ağdam və Ağdərə rayonları ərazisində respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak edib. O, 5477 saylı (hazırda 17072) hərbi his-


ŞƏHİD Z.HACIYEVİN OĞUZ RAYONUNUN XAÇMAZ KƏNDİNDƏ MƏZARI

sənin ön cəbhədəki şəxsi heyətinin tərkibində düşmənə qarşı mətinliklə vuruşaraq, çətin sınaqlarla üzləşib. Onun döyüş yolunda Ağdərə istiqaməti xüsusi qeyd olunmalıdır. 1992-ci ilin yay və payız aylarında burada şiddətli döyüşlər olub. Həmin döyüşlərdə neçə-neçə kənd və hərbi əhəmiyyət kəsb edən yüksəklik düşməndən geri alınıb, işğalçılar xeyli canlı qüvvə itiriblər, onların texnika, silah-sursatları ələ keçirilib. Zülfüqarın tərkibində vuruşduğu hərbi hissənin o dövrkü döyüş xidmətləri danılmazdır. Düşmənə sarsıdıcı zərbələr vurulmasında hər bir döyüşçü öz güc-qüvvəsini əsirgəmirdi.

Daxili Qoşunlarda xidmət etmiş, ehtiyatda olan baş çavuş Həsrət Əliyev Zülfüqarın döyüş yolunun canlı şahididir. H.Əliyev mənimlə söhbətində Zülfüqarın ön cəbhədə onun tabeliyində olduğunu, mərhumu qorxmaz və cəsarətli döyüşçü kimi xatırladığını, əsgərinin döyüşçülər arasında hörmət qazandığını vurğuladı. Onun döyüş ruhu və əsgər əzmini xüsusi olaraq qeyd etdi. H.Əliyev Zülfüqarın 1992-ci ilin noyabr ayında döyüşlərdən birində Ağdərə rayonunun Çıldıran kəndi (hazırda işğal altındadır) ətrafındakı ön mövqedə düşmən minaatanından atılan mərminin partlaması nəticəsində ağır dərəcəli qəlpə yaralanmasından yerindəcə şəhid olduğunu bildirdi. Həmin an onunla birgə səngərdə dayanan bir neçə nəfər döyüşçü də həlak olub. Döyüşçülərin dəhşətli vəziyyətdə olan meyitləri ərazidən çıxarılıb.

1992-ci ildə tərtib olunmuş IV-JQ 393413 nömrəli ölüm haqqında şəhadətnamədə Zülfüqarın 17.11.1992-ci ildə Ağdərədə döyüşdə həlak olduğu yazılıb.

Daha bir sənədə istinad etsək, Daxili Qoşunların hərbi qulluqçusunun ölümünü təsdiq edən 21.12.1992-ci il tarixli rəyin məzmununda əsgər Z.Hacıyevin 15.11.1992-ci ildə Ağdərə rayonu ərazisində həlak olduğu göstərilib.

Daxili Qoşunların Arxivindən verilən 529 nömrəli, 20.08.2018-ci il tarixli arayışda əsgər Z.Hacıyevin 1992-ci il noyabrın 15-də Ağdərədə şəhid olduğu qeyd edilib.

Əsgər Z.Hacıyev 1992-ci il noyabrın 20-də Oğuz rayonunun Xaçmaz kəndinin qəbiristanlığında dəfn olunub.

Gülxani Pənahın müəllifi olduğu, 1999-cu ildə "Mütərcim" nəşriyyatında çap olunan "Oğuz şəhidləri, itkinləri" kitabında Zülfüqar haqqında yazı verilib.

Şəhidin ailəsinə dövlətimiz tərəfindən müvafiq müavinət təyin edilib.

Onu da qeyd edim ki, şəhidin qardaşı Eyvazın kiçik oğlu Zülfüqarın adını daşıyır.

İnanırıq ki, Zülfüqar və onun kimi şəhid oğulların qisası bu gün döyüş əmrini gözləyən, şərəfli hərbi ənənələrimizi yaşadan, düşməni qorxuya salan cəngavər hərbçilərimiz tərəfindən alınacaq, işğal altındakı torpaqlarımız düşmən tapdağından azad olunacaqdır.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

4_Layout 1 30.08.2018 13:03 Page 1



# 16075 SAYLI HƏRBİ HİSSƏDƏ SEMİNAR-MÜŞAVİRƏ KEÇİRİLİB

***Avqustun 21-də Fövqəladə Hallar Nazirliyinin (FHN) Sumqayıt Regional Mərkəzinin əməkdaşları tərəfindən Daxili Qoşunların 16075 saylı hərbi hissəsində "Fövqəladə hallarla bağlı davranış və yanğın təhlükəsizliyi qaydaları" mövzusunda seminar-müşavirə keçirilib. Tədbirdə FHN Sumqayıt Regional Mərkəzinin, Sumqayıt şəhər Dövlət Yanğından Mühafizə İdarəsinin əməkdaşları və hərbi hissənin şəxsi heyəti iştirak edib. Gündəlikdə duran əsas məsələ hərbi hissənin şəxsi heyətinin fövqəladə hallarla bağlı davranış qaydaları və mülki müdafiə sahəsində biliklərinin artırılmasına, baş verə biləcək yanğın və ya partlayış hadisələrinin qarşısının alınması məqsədilə profilaktik tədbirlərin görülməsinə yönəlib.***

Hərbi hissə komandiri mayor Emil Rüstəmov öncə tədbiri açıq elan edib. O, FHN Sumqayıt Regional Mərkəzinin maarifləndirmə məqsədilə silsilə olaraq keçirdiyi bu cür tədbirləri yüksək qiymətləndirərək, qurumun əməkdaşlarına öz minnətdarlığını bildirib. Mövzunun aktuallığını və əhəmiyyətini açıqlayıb. Sonra çıxış üçün söz FHN Sumqayıt Regional Mərkəzinin İctimaiyyətlə əlaqə və təbliğat sektorunun baş məsləhətçisi Emin Ramazanova verilib. Əvvəlcə aparılan maarifləndirmə tədbirinin mahiyyəti və məqsədi barəsində söz açan məruzəçi tədbir iştirakçılarına fövqəladə hallar haqqında ətraflı məlumat verib. Mövsümlə əlaqədar olaraq, "Dəm qazı" və "Çimərliklərdə təhlükəsizlik qaydaları" mövzusuna toxunan E.Ramazanov şəxsi heyətə dəm qazının yaranması və ondan qorunma üsullarından danışıb. Ardınca çimərlik mövsümündə dəniz, digər çimərlik ərazilərindən düzgün istifadə qaydaları barədə onları təlimatlandırıb. Məruzəsində, həmçinin, "112 qaynar xətti" mövzusuna toxunan lektor "112" xidmətinə hansı hallarda zəng etməyin vacibliyini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Daha sonra FHN Sumqayıt Regional Mərkəzinin Təlim və əməliyyat planlaşdırma şöbəsinin baş zabiti, kapitan Şahin Məmmədov "Zəlzələ zamanı necə davranmalı?", "Sel və daşqın zamanı nə etməli?" mövzularında çıxış edərək, zəlzələ vaxtı və sonra hansı davranış qaydalarına riayət olunmasını nəzərə çatdırıb. Çıxışında sel və daşqın zamanı təxliyyə qaydalarına da toxunan kapitan Ş.Məmmədov şəxsi heyətə bu barədə maraqlı statistik məlumatlar verib.

Tədbiri Sumqayıt şəhər Dövlət Yanğından Mühafizə İdarəsinin 20 nömrəli Yanğından Mühafizə hissəsinin rəis müavini, daxili xidmət mayoru Samir Məmmədov davam etdirib. O, son dövrlərdə yanğın hallarının artdığını və bu haqda statistik məlumatların coxluğunu diqqət mərkəzinə gətirərək, bu kimi halların qarşısının alınması yolları barəsində danışıb. Eləcə də məktəblərdə yanğın təhlükəsizliyi qaydalarına riayət olunmasının vacibliyini vurğulayaraq, yanğınsöndürmə balonlarından istifadə qaydaları haqqında geniş məlumat verib.





Qeyd olunan mövzuların nə dərəcədə əhəmiyyətli olduğunu bildirən məruzəçi istənilən hadisənin mərkəzində insan faktorunun dayandığını və məhz bu səbəbdən hadisə zamanı son dərəcə diqqətli davranmağın vacibliyini vurğulayıb.

Sonda mövzulara aid videoçarxlar nümayiş olunub, mərkəzin əməkdaşları tərəfindən tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb. Hərbi qulluqçulara maarifləndirmə xarakterli təbliğat materialları, yaddaş kitabçaları və bukletlər paylanılıb.

**leytenant N.Ağayeva**

*NÜMUNƏVİ XİDMƏT*

# XİDMƏT MƏNAFEYİNİ QORUYAN, VƏZİFƏ BORCUNA VİCDANLA YANAŞAN HƏRBİ QULLUQÇU...

64412 saylı hərbi hissədə yanacaq-sürtgü materialları anbarlarının rəisi baş çavuş Sadıqov Elsevər Əlikişi oğlu Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarında uzun illərdir layiqincə xidmət edir. Hərbi hissənin komandanlığı tərəfindən onun fəaliyyəti müsbət xarakterizə olunur.

Baş çavuş E.Sadıqov 1977-ci il yanvarın 1-də Kürdəmir rayonunun Böyük Kəngərli kəndində anadan olub. Şəhid Habil İsmayılov adına kənd orta məktəbini bitirib.

O, 1996-cı ilin oktyabr ayından etibarən Daxili Qoşunların 25032 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə başlayıb. Bu hərbi hissədə hərbi andı qəbul edib. Sonra 12318 saylı hərbi hissənin təminat bölüyündə hərbi xidmətini davam etdirib. 1998-ci ilin sentyabr ayında müddətdən artıq həqiqi hərbi xidmətə keçirilən Elsevər "kiçik çavuş" hərbi rütbəsi verilməklə 64412 saylı hərbi hissədə avtomobil və zirehli texnikanın toxunulmaz ehtiyatı üzrə anbar rəisinin köməkçisi vəzifəsinə təyin olunub. Funksional vəzifələrini məsuliyyətlə yerinə yetirməsi, icraçılığı, çalışdığı sahənin xüsusiyyətlərinə mükəmməl yiyələnməsi nəzərə alınaraq, Elsevər hərbi hissədə ayrı-ayrı məsul vəzifələrə irəli çəkilib. 2003-cü ilin sentyabr ayında isə ona növbəti dəfə etimad göstərilərək YSM anbarlarının rəisi vəzifəsi həvalə edilib. 2001-ci iliin fevral ayında ona "çavuş", dekabr ayında isə "baş çavuş" hərbi rütbələri verilib.

Qeyd edim ki, baş çavuş E.Sadıqov Daxili Qoşunların mərkəzləşdirilmiş maddi-texniki təchizatında xüsusi rol oynayan bu hərbi hissədə təcrübəli və səriştəli hərbi qulluqçulardan biridir. Hərbi hissənin qarşısına qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsində onun da əməyi var. YSM anbarının rəisi kimi öz sahəsi üzrə funksional vəzifələrinin icrasına vicdanla yanaşır. Dəfələrlə hərbi hissədə aparılan müxtəlif yoxlamalar zamanı YSM anbarının işi nümunə göstərilib. YSM anbarında yanacaq-sürtgü materiallarının düzgün saxlanması, mədaxil və məxaric qaydalarına riayət olunması, uçotunun dəqiq aparılması, yanğın təhlükəsizliyinin, daxili səliqə-sahmanın təmin edilməsi, habelə anbarın qarovula müvafiq tələblərə uyğun olaraq mühafizə üçün təhvil verilməsinə yüksək cavabdehliklə yanaşan baş çavuş E.Sadıqov, xidmət mənafeyini üstün tutan, təşəbbüskar, təşkilatçılıq qabiliyyətli hərbi qulluqçu kimi də fərqlənir. Elsevər öz döyüş hazırlığının qorunub saxlanması və yüksəldilməsi yönündə əzmlə çalışır, 2-ci məharət dərəcəsinə sahiblənib.

O, bu günədək hərbi xidməti müddətində komandanlıq tərəfindən dəfələrlə mükafatlandırılıb. Belə ki, "Qüsursuz xidmətə görə" medalının hər üç dərəcəsi, "Azərbaycan Respublikası Silahlı Qüv-



vələrinin 90 illiyi" yubiley medalı, Daxili Qoşunların "Xidmətdə fərqləndiyinə görə" və yubiley döş nişanları ilə təltif olunub, ona fərman, pul mükafatları verilib, "təşəkkür" elan edilib.

Baş çavuş E.Sadıqov xidmət etdiyi hərbi kollektivin mənəvi cəhətdən möhkəmləndirilməsi baxımından da öz töhfəsini verir. Hərbi xidmət müddəti az olan hərbi qulluqçulara təcrübəsini bölüşür, köməklik edir.

Bir məqamı da qeyd edək ki, Elsevər ötən illərdə onun formalaşmasında əməyi olan hərbi qulluqçulara minnətdar olduğunu bildirdi, onların arasında hazırda xidmət edən və sıramızda olmayan veteranlar da var. O, vaxtilə birgə xidmət etdiyi, vəfat etmiş veteran hərbi qulluqçuların xatirəsini ehtiramla anır. Hərbi qulluqçu üçün bu, nəcib bir keyfiyyətdir.

Həmçinin, Elsevərin əldə etdiyi uğurlardan arxayınlaşmaması, öz işini təkmilləşdirməyə səy göstərməsi təqdirəlayiq haldır.

Uğurlarınız davamlı olsun, bundan sonra da xoş soraqlarınızı eşidək, yoldaş baş çavuş!

**Yalçın Abbasov**

*metodiki vəsait*

# KİBERTƏHLÜKƏSİZLİYİN ƏSASLARI, TEXNOLOGİYA VƏ VACİB OLAN NÜANSLAR

***Kibercinayətkarlığın son dərəcədə artması dünyada dövlət idarəçiliyi, milli təhlükəsizlik, bank, nəqliyyat və digər sistemlərin təkmilləşdirilməsini, kibermüdafiə tədbirlərinin genişləndirilməsini tələb edir.***



Kibertəhlükəsizlik sistemlərin, şəbəkələrin və proqram təminatlarının rəqəmsal hücumlardan qorunması üçün tədbirlərin həyata keçirilməsidir. Bu cür hücumlar adətən gizli məlumatlara giriş əldə etmək, onu dəyişdirmək, məhv etmək, istifadəçilərdən vəsait əldə etmək, təşkilat və ya şirkətlərin normal fəaliyyətini pozmaq məqsədilə həyata keçirilir.

Effektiv kibertəhlükəsizlik tədbirlərinin həyata keçirilməsi artıq çox çətin prosesdir. Çünki bu gün hücumların həyata keçirildiyi cihazların sayı insanların sayından dəfələrlə çoxdur, kiber cinayətkarlar isə hər gün yeni ixtiralardan istifadə edirlər.

**Kibertəhlükəsizliyin əsasları hansılardır?**

Müvəffəqiyyətli bir kibertəhlükəsizlik yanaşması qorunması vacib olan kompüterlərin, şəbəkələrin, proqramların və ya informasiyaların çoxpilləli mühafizəsi kimi ifadə edilir. Kiber hücumlar qarşısında səmərəli müdafiəni təmin etmək üçün bu sahədə çalışan əməkdaşlar, iş prosesləri və texnologiyalar bir-birini tamamlamalıdır.

Bu sahədə çalışan əməkdaşlar informasiya təhlükəsizliyinin əsas prinsiplərini başa düşməli, etibarlı şifrələr seçməli, göndərilən və qəbul edilən e-poçt və əlavə edilən fayllara diqqət yetirməli və məlumatların ehtiyat nüsxəsinin digər mənbələrdə etibarlı saxlanılmasını təmin etməlidirlər.

Hər bir qurum isə davam edən və ya uğurla həyata keçirilən hücumlara qarşı bir sıra əsas tədbirlər görməlidir. Etibarlı tədbirlər planı vahid mərkəzdən idarə edilməlidir. Bu kompleks tədbirlər hücumların müəyyənləşdirilməsini, sistemlərin qorunmasını, təhdidlərin müəyyənləşdirilməsini, onların aradan qaldırılmasını və hücumlardan sonra fəaliyyət imkanlarının necə bərpa edilməsini izah etməlidir.

**Texnologiya**

Texnologiyalar təşkilatları və fərdi istifadəçiləri özlərini kiber hücumlardan qorumaq üçün lazım olan vasitələrlə təmin edən mühüm elementdir. Mühafizə edilməli olan əsas komponentlərə kompüter və smart cihazlar, routerlər və modemlər, şəbəkə və "bulud mühiti" aiddir. Sadalanan komponentləri qorumaq üçün istifadə olunan ən yayğın texnologiyalar arasında yeni nəsil şəbəkəarası routerlərin tətbiqini, DNS filtrdən keçirilməni, zərərli proqram təminatından mühafizəni, antivirus proqramının yüklənməsini və e-poçt qorunmasını qeyd etmək olar.

**Kibertəhlükəsizlik nə üçün vacibdir?**

Bu gün dünyada inkişaf etmiş kibermüdafiə proqramları hər bir istifadəçinin maraqlarını qoruyur. Fərdi səviyyədə bir kibermüdafiə hücumu şəxsi məlumatların oğurlanmasına, vəsaitlərin və ya ailə fotoşəkilləri kimi dəyərli məlumatların itkisinə, böyük miqyasda isə dövlət və hərbi sirlərin yayılmasına qədər neqativ nəticələrə səbəb ola bilər. Bütün kritik infrastrukturların, məsələn, elektrik stansiyalarının, xəstəxanaların, maliyyə xidmətləri göstərən bank sektorunun və digər qurumların qorunması cəmiyyətimizin həyat və fəaliyyətini təmin etmək üçün çox vacibdir.

Hər bir şəbəkə istifadəçisi kiber təhlükə tədqiqatlarından faydalanır, məsələn, 250 nəfərlik Talos qrupunun kiber mütəxəssisləri kiber hücum strategiyalarını, yeni və yaranan təhlükələri öyrənirlər. Onlar yeni zəif və həssas nöqtələri aşkar edir, ictimaiyyəti kibertəhlükəsizliyin əhəmiyyəti barədə məlumatlandırır və açıq mənbəli proqram kodları vasitəsilə sistemlərin etibarlılığını artırırlar. Bu ekspertlərin fəaliyyəti hər bir istifadəçi üçün interneti daha təhlükəsiz etməkdən ibarətdir.

İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı kibercinayətkarlığın meydana gəlməsinə və gündən-günə artmasına səbəb olub. Birləşmiş Millətlər Təşkilatının hesabatında hər il 1.5 milyondan çox insanın internet vasitəsilə törədilən cinayətlərin qurbanı olduğu və kibercinayət xarakterli fəaliyyət nəticəsində dəymiş ümumi ziyanın 1 milyard ABŞ dollarından artıq təşkil etdiyi bildirilir. Kibercinayətkarlığın artması bütün dünyada dövlət idarəçiliyi, bank, nəqliyyat, milli təhlükəsizlik və digər sistemlərin təkmilləşdirilməsini, kibermüdafiə tədbirlərinin genişləndirilməsini aktual edir. 2012-ci ildə ABŞ-ın Çikaqo şəhərində keçirilən NATO sammitində qəbul olunan yekun bəyannamədə də kiber hücumların kəmiyyət və keyfiyyətinin artması faktları bir daha qeyd olunub və Alyansa üzv dövlətlərin ayrı-ayrılıqda, həmçinin, beynəlxalq təşkilatlarla (BMT, Avropa İttifaqı, Avropa Şurası və digərləri) birlikdə vahid kibermüdafiəsinin təşkilinin vacibliyi vurğulanıb. Artıq ABŞ, Rusiya, Çin, İngiltərə, Fransa, Almaniya və bir sıra başqa inkişaf etmiş dövlətlər öz xüsusi kiber qoşunlarını yaradıblar. Bu dövlətlər əsas məqsədlərinin öz şəbəkələrini müdafiə etmək olduğunu bildirsələr də, burada hücum əməliyyatlarının aparılması da nəzərdə tutulur. Birləşmiş Ştatlar və Rusiyanın uzun illərdir ki, seçkiqabağı kampaniyalar zamanı fəaliyyətdə olan prezidentlərə qarşı, hətta ən yaxın müttəfiqləri olsa belə, genişmiqyaslı elektron casusluq əməliyyatları həyata keçirdiyi barədə kifayət qədər geniş məlumatlar mövcuddur. ABŞ-dakı və Meksikadakı son seçkilər ümumdünya informasiya şəbəkəsi olan internetin qlobal döyüş meydanına çevrilməsinə səbəb olub.

***(davamı gələn sayımızda)***

**Ə.Verdiyev**
**hərbi ekspert (ordu.az)**

## HƏRBİ XƏBƏRLƏR

*-YENİLİKLƏR -*

### ABŞ yeni robot hücum tankını təkmilləşdirir

Ordu.az xəbər verir ki, bu barədə Pentaqon rəsmisi Osiye Deyvid bildirib.



O qeyd edib ki, yeni robot texnologiyasında süni zəkadan istifadə edilməsi planlaşdırılır.

"Hazırda bu layihə üzərində işlərə başlanılıb. Məsafədən idarə olunacaq bu tankların ilkin versiyasının istehsalının 2030-cu illərin əvvəlinə yekunlaşdırılması planlaşdırılır. Bu tanklar GPS sistemi ilə təchiz ediləcək ki, bu da ona öz-özünü idarəetmə imkanı yaradacaq", - deyə Deyvid bildirib.

Qeyd edək ki, layihə "Raytheon" korporasiyası ilə əməkdaşlıq çərçivəsində həyata keçirilir.

### ABŞ donanması ölümcül minaların tapılması üçün yeni plan hazırlayıb



Ordu.az xəbər verir ki, bu, sualtı minaların tapılmasında sözügedən texnologiyanın ilk istifadə olunduğu haldır.

Hava Platformasında Lazer Mina Aşkarlama Sistemi adlanan texnologiyanın mina əleyhinə tədbirləri sürətləndirməyə imkan verdiyi bildirilir.

ABŞ donanmasının Mina Müharibə proqram meneceri Daniel Georq bildirib ki, donanma təlimlərin bitməsindən sonra məlumatları analiz edərək texnologiyanın effektliyi barədə daha dəqiq nəticəyə gələcək.

### Rusiyanın Tu-22M3M təyyarəsi hipersəs raketləri ilə silahlandırılıb



Ordu.az xəbər verir ki, bu barədə Rusiya Federasiyası Şurasının Müdafiə Komitəsinin sədri Viktor Bondarev bildirib.

Onun sözlərinə görə, daşıyıcının təchiz olunduğu silahların mənzili genişləndirilib. Bu silahlar arasında Kh-32 dəqiq zərbə raketləri və hipersəs raketləri var.

Qeyd edək ki, Tu-22M3M Tu-22M3 strateji bombardmançısının yenilənmiş versiyasıdır. O, supersəs sürətlə hərəkət edə bilir.

## Allah rəhmət eləsin

Daxili Qoşunların Komandanlığı polis polkovniki **Abdul Zərgərlinin** vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25032 saylı hərbi hissənin komandanlığı mayor Vüqar Rəhimova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000